Redaksiyaya məktublar

written by briadmin
Əziz oxucular,

Bir müddət əvvəl Tinay Muşdiyeva BRI üçün Fukididin "*Peloponnes müharibəsi*" kitabından "Periklin Qəbirüstü nitqi"ni qədim yunan dilindən Azərbaycan dilinə tərcümə etmişdir[i]. Bu tərcümə əli Novruzovun müqəddiməsi ilə müşaiət olunmuş[ii] və elmi mübahisə doğurmuşdur. Biz mübahisə tərəflərinin, yəni hamımızın böyük hörmət bəslədiyi Hikmət Hacızadənin şərhini və əli Novruzovun bu şərhə yazdığı cavabı diqqətinizə təqdim edirik:

Hörmətli Hikmət Hacızadənin şərhi:

Hörmətli əli Novruzov bəy, Altay bəy və Tinay xanım,

BRI səhifəsində yerləşdirdiyiniz əli Novruzovun rəyi ilə bağlı sizi narahat edirəm. əli Novruzov yazır ki, Hikmət Hacızadənin tərcüməsində bir qəribə cümlə var, amma Perikl belə şey deməyib VƏ DEYƏ DƏ BİLMƏZDİ…

Belə çıxır ki, Hikmət Hacızadə Periklin əvəzinə bunu uydurub…

Əvvəla, belə bir müəmma əmələ gəlibsə, onda elmi və etik qaydada əvvəl onu gərək mənə yazaydınız, bərabər araşdırardıq ki, bu, nə məsələdir? Amma əli Novruzov yazdı, BRI də bunu dərc etdi. Buna mənim cavabım belədir:

Ya sizin Perikliniz başqadır, mənimki başqadır, ya da mən bunu qəsdən uydurmuşam ki, Novruzovu və başqa gənc filosofları çaşdıram.

Amma və lakin uzağa getmədən İnternetdən sizə mənim Periklimin sözlərini çatdırmaq istəyirəm. Budur:

https://aworlds.com/blogs/privet-ja-hyem/karl-popper-otkrytoe-obschestvo-i-ego-vr.html

Карл Поппер . Открытое общество и его враги. Т. I “Чары Платона”. Историцизм.

В пользу открытого общества (около 430 года до новой эры):

Не многие способны быть политиками, но все могут оценивать их деяния. (Перикл Афинский.)

***

https://cyberleninka.ru/article/n/genezis-sotsialno-filosofskih-kontseptsiy-vlasti

ГЕНЕЗИС СОЦИАЛЬНО-ФИЛОСОФСКИХ КОНЦЕПЦИЙ ВЛАСТИ

Слова знаменитого Перикла Афинского – не многие способны быть политиками, но все могут оценивать их деяния –

***

http://www.wisdomcode.info/ru/quotes/authors/66615.html

АФИНСКИЙ Перикл

Не многие способны быть политиками, но все могут оценивать их деяния. – Перикл Афинский

***

https://ru.citaty.net/avtory/perikl/

Перикл, афинский государственный деятель – 494 – 429 до н.э.

„Лишь немногие могут творить политику, но судить о ней имеет право каждый.“

Hörmətli Əli Novruzovun cavabı:

Hörmətli Bakı Araşdırmalar İnstitutu,

Periklin *Qəbirüstü nitqi* haqqında BAİ üçün yazdığım şərhə Hikmət bəyin verdiyi şərhdən mənə aydın olur ki – Periklдən müxtəlif sitatlar paylaşan onlayn sitat saytlarını bir kənara

qoysaq, çünki belə saytlarda saxta sitatlar kifayət qədər çox olur – *Demokratiya: Gediləsi uzun bir yol* antologiyasında getmiş həmin mübahisəli cümlənin mənbəyi Karl Popperin *Açıq cəmiyyət və onun düşmənləri* kitabının rus nəşridir.

Həmin tərcümədə həqiqətən də belə bir cümlə var və bu cümlə Popperin Periklдən gətirdiyi birbaşa sitatın içərisində verilib:

Одни и те же люди у нас одновременно бывают заняты делами и частными, и общественными… Только мы признаем человека, не занимающегося общественной деятельностью, не благонамеренным гражданином, а бесполезным обывателем. **Не многие способны быть политиками, но все могут оценивать их деяния.** Мы не думаем, что открытое обсуждение может повредить ходу государственных дел. Напротив, мы считаем неправильным принимать нужное решение без предварительной подготовки при помощи выступления с речами за и против…[1]

Lakin Popperin əsərinin orijinalına baxdıqda, həmin hissənin tamam başqa məna verdiyi görünür:

An Athenian citizen does not neglect public affairs when attending to his private business … We consider a man who takes no interest in the state not as harmless, but as useless; and **although only a few may originate a policy, we are all able to judge it**. We do not look upon discussion as a stumbling-block in the way of political action, but as an indispensable preliminary to acting wisely …[2]

Sözügedən mübahisəli cümlənin hərfi tərcüməsi təxminən belə olacaq:

Hərçənd çox az adam siyasi təşəbbüs (siyasi təklif) irəli sürə bilər, lakin biz hamımız onun barəsində fikir yürüdə bilərik (götür-qoy edə bilərik).

Kontekstdən aydın görünür ki, bu yerdə söhbət Afina xalq yığıncağının təsvirindən gedir: *yəni siyasi təşəbbüs və*

təkliflərlə çıxış edənlər adətən çox az adam olsa da, biz (afinalılar) onları götür-qoy edə bilirik, çünki biz (afinalılar) qərar qəbul edərkən müzakirənin vacib olduğunu hesab edirik.

Ümid edirəm ki, Hikmət bəy burada mənimlə razılaşar: bu fraqmentdə siyasətlə məşğul olmayan şəxslərin, siyasətçi olmayan şəxslərin yox, məhz siyasətlə məşğul olan adamların qərar qəbul edərkən müzakirəyə verdiyi əhəmiyyətdən danışılır.

Mənə sanki indi aydın olur ki, sözügedən antologiyada həmin cümlə Periklin nitqinin mətninə[3] necə düşüb: Popperin kitabının rus nəşrinin I cildində verilmiş həmin sitat azərbaycancaya tərcümə edilərək tərcüməçi və ya redaktor tərəfindən Periklin nitqinin mətninə daxil edilib. Çox güman ki, tərcümə zamanı istifadə olunan ilkin mətndə həmin sitatı görməyən tərcüməçi və ya redaktor onu yekun mətnə daxil etmək barədə ixtiyari qərar verib, bu zaman isə həmin sitatın nə Fukididin mətnində, nə də Popperin ingiliscə orijinalında olmaması faktı redaktor və ya tərcüməçini narahat etməyib. Onların motivasiyası mənə aydın deyil.

Bununla yanaşı, Fukididin mətninin birbaşa tərcümələrinə baxanda, hətta Popperin də tərcüməsinin yanlış və təhrifli olduğu ortaya çıxır. Popper öz kitabının siyasi-ideoloji funksiyasından irəli gələrək Periklin sözlərinə *müəyyən bir interpretasiya* verib. Bu interpretasiya *açıq cəmiyyətin müdafiəsi* və *onun düşmənləri ilə mübarizə* üçün Popperə vacib idi. Siyasi-ideoloji gündəlik izləməyən digər tərcümələrdə belə bir interpretasiya təbii olaraq yoxdur.

Məsələn, Mişşenkonun tərcüməsində və Akademik Jebelyovun redaktəsində oxuyuruq:

Одним и тем же лицам можно у нас и заботиться о своих домашних делах, и заниматься делами государственными, да и прочим гражданам, отдавшимся другим делам, не чуждо понимание дел государственных. Только мы одни считаем не свободным от занятий и трудов, но бесполезным того, кто вовсе не участвует

в государственной деятельности. **Мы сами обсуждаем наши действия или стараемся правильно оценить их,** не считая речей чем-то вредным для дела; больше вреда, по нашему мнению, происходит от того, если приступить к исполнению необходимого дела без предварительного уяснения его речами.[4]

Reks Uornerin ingiliscə tərcüməsində oxuyuruq:

Here each individual is interested not only in his own affairs but in the affairs of the state as well: even those who are mostly occupied with their own business are extremely well-informed on general politics—this is a peculiarity of ours: we do not say that a man who takes no interest in politics is a man who minds his own business; we say that he has no business here at all. **We Athenians, in our own persons, take our decisions on policy or submit them to proper discussions:** for we do not think that there is an incompatibility between words and deeds; the worst thing is to rush into action before the consequences have been properly debated.[5]

Daha köhnə bir tərcümədə, Riçard Krouli (*Richard Crawley*) bunu daha fərqli formada çevirib:

Our public men have, besides politics, their private affairs to attend to, and our ordinary citizens, though occupied with the pursuits of industry, are still fair judges of public matters; for, unlike any other nation, regarding him who takes no part in these duties not as unambitious but as useless, **we Athenians are able to judge at all events if we cannot originate,** and, instead of looking on discussion as a stumbling-block in the way of action, we think it an indispensable preliminary to any wise action at all.[6]

BAİ tərəfindən sizə təqdim edilən versiyada (Tinay Muşdiyevanın tərcüməsində) bu hissə aşağıdakı formada verilib:

Bizim dövlət adamlarımız ictimai maraqların müdafiəsində mahir olduqları kimi öz şəxsi maraqlarını da gözləməkdə mahirdirlər; daha çox öz şəxsi işləri ilə məşğul olanlar da dövlətin işləri

haqqında ətraflı məlumata sahibdirlər. Çünki yalnız biz, siyasət və dövlət işlərində iştirak etməyənləri qayğısız vətəndaş yox, yararsız vətəndaş hesab edirik. Biz hadisələr barəsində mövqeyimizi ya özümüz formalaşdırırıq, ya da digərlərinin fikirlərini götür-qoy etdikdən sonra qəbul edirik, çünki müzakirələrdə fəaliyyət üçün bir maneə görümük; əksinə, vacib bir əməli həyata keçirməzdən öncə onu kifayət qədər müzakirə edib düzgün nəticə çıxarmamaqdan daha çox zərər gəlir.

Oxucular üçün laboratoriyanın qapısını bir balaca aralasaq, mətnin qədim yunancadan birbaşa hərfi tərcüməsi (hələ çiy və ilkin forması) aşağıdakı kimidir:

Və beləliklə bizim dövlət adamlarımız (siyasətçilərimiz) dövlət maraqlarını gözləməkdə mahir olduqları kimi öz maraqlarını da gözləməkdə mahirdirlər, və həmçinin özlərini qazanc işlərinə həsr edənlər də dövlət işlərindən anlaşıqsız deyillər. Çünki tək biz bu işlərdə (dövlət işlərində, siyasətdə) iştirakçı olmayanı səssiz, sakit vətəndaş yox, yararsız vətəndaş hesab edirik, və biz olanlar (olan şeylər) haqqında ya özümüz düzgün fikir (mövqe) formalaşdırırıq ya da başqalarının məsləhətlərini anlayaraq (düşünülmüş şəkildə) qəbul edirik. Çünki biz çoxtərəfli düşünməkdə hərəkət etmək (əməl, iş) üçün bir ziyan görmürük, amma əksinə, lazım olanda işə keçməzdən əvvəl lazımınca sınanıb dərs almamaqda ziyan görürük.

Göründüyü kimi, BAİ versiyası nə Mişşenko-Jebelyov versiyası kimi axıcı, nə Uorren versiyası kimi bədii, nə də Popper versiyası kimi ideoloji *soundbite* olmasa da, orijinala mümkün qədər sadiq qalmağı seçir. Tərcümə kifayət qədər subyektiv prosesdir, tərcüməçini hər dəfə müəyyən kompromislərə getməyə vadar edir. Bəzən bədiiliyi dəqiqliyə qurban vermək lazım gəlir, bəzən də əksinə. Vacib olan, hər iki dilə bələd olmaqla yanaşı, *kompromisin* harada bitdiyi, *təhrifin* harada başladığını duymaq hissidir ki, yaxşı tərcüməçi (və redaktor) bu hər iki məziyyətə eyni anda sahib olmalıdır.

BAİ üçün yazdığım müqəddimə və şərhdə "tərcümələrdən tərcümə praktikasına son qoymağa" çağırış edərkən, məhz bu cür halları nəzərdə tuturdum. Karl Popperin bilərəkdən təhrifli tərcüməsindən Sadovski qrupunun tərcümə (redaktə) zamanı bilərək və ya bilməyərək etdiyi ikinci təhrif sonda hansı anlaşılmazlıqlara gətirib çıxarır – əyani şəkildə hər birimiz şahidi oluruq.

Dərin hörmətlə,

Əli Novruzov

[1] Поппер, Карл Раймунд. *Открытое общество и его враги*, перевод с английского под общей редакцией В. Н. Садовского. М., Феникс, Международный фонд «Культурная инициатива», 1992. http://gtmarket.ru/laboratory/basis/3912/3924

[2] Karl R. Popper, The Open Society And Its Enemies, 7th rev. ed., vol. I (London and New York: Routledge, 2012), 203.

[3] Demokratiya: Gediləsi uzun bir yol, tərt. Hikmət Hacızadə (Bakı: İqtisadi və Siyasi Araşdırmalar Mərkəzi FAR Centre, 2002), 3-5.

[4] Фукидид, *История*, перевод с греческого Ф. Г. Мищенко под редакцией С. А. Жебелева. "Наука", "Ювента", Санкт-Петербург, 1999. http://az.lib.ru/f/fukidid/text_1915_istoria.shtml

[5] Thucydides, History of the Peloponnesian War, trans. Rex Warner (London: Penguin, 1972), 147.

[6] History of the Peloponnesian War by Thucydides, translated by Richard Crawley. https://en.wikisource.org/wiki/History_of_the_Peloponnesian_War/Book_2#Pericles_Funeral_Oration

[i] https://bakuresearchinstitute.org/az/azerbaijani-periklin-q%C9%99birustu-nitqi/

[ii] https://bakuresearchinstitute.org/az/azerbaijani-periklin-q%C9%99birustu-nitqinin-q%C9%99dim-yunan-dilind%C9%99n-dilimiz%C9%99-t%C9%99rcum%C9%99sin%C9%99-s%C9%99rh-muq%C9%99ddim%C9%99/